# Kamanın mehri və Mehrinin kamanı

**Musiqi alətləri içərisində kamançanın öz yeri var. İnsan qəlbinin simlərinə toxunmaq qüdrəti kamançanı digər alətlərdən fərqləndirir. O həm də insan səsinə yaxınlığı ilə seçilir. Kamançanın bətnində uyuyan səsi dilləndirmək böyük məharət tələb edir.**

Qrammatikada sifət ismə uyğun gəldiyi kimi, kaman da daim insan barmaqlarına doğru can atır; barmaqlar simlərə toxunanda, sanki, ruh, kamanı canlandırır. Yetər ki, onu diqqətlə dinləyəsən. Sənət adamları başqasına sirr olanı aşkar görürlər.

Mehri Əsədullayeva kamana ruh bəxş etməyi bacaran nadir istedad sahiblərindəndir. Hər dəfə onun ifasını dinləyəndə xəyal məni Buzovnanın qumlu sahillərinə aparır, dalğaların ritmini Abşeron mühitinin rənglərini görürəm o xallarda. Qəribə assosiasiyalardır. Bəlkə də bu, mənim də, onun da Bakı mühitində yetişməyimizlə bağlıdır. Çox güman ki, belədir. Mehri xanımın ifasında Şərqlə Qərbin təmasları çox rahatlıqla çulğaşır, keçidlər o qədər ahəngdarlıqla, harmonik şəkildə tətbiq olunur ki, qulağa yad gəlmir, əksinə, qəlbə rahatlıq, ruha dinclik gətirir.

Kamanın arxaikası, semantikası və mədəniyyət şəbəkəsində "kaman" anlayışı ilə bağlı paradiqmalar geniş və müfəssəl şərh tələb edən mövzulardır. Bu barədə mənim fərqli düşüncələrim var, yəqin ki, nə vaxtsa bu barədə də yazacağam. İndi isə yol alıram bu günlərdə baş vermiş xoş bir sənət hadisəsinin fəlsəfi-estetik mətləbinə...

Mehri Əsədullayeva musiqiçi ailəsində dünyaya gəlib. Atası Əməkdar incəsənət xadimi, professor Arif Əsədullayev muğamlarımızı nota köçürən nadir kaman ifaçısıdır.

Onun bu xidməti musiqi mədəniyyətimiz üçün əvəzsiz töhfədir. Anası Azərbaycanda ilk qadın solist kamança ifaçısı olmuş Xalq artisti Şəfiqə xanım Eyvazova ifaçılıq sənətimizin zirvəsindəndir. Belə bir ailədə dünyaya göz açmaq onun gələcək taleyini müəyyənləşdirirdi. Mehri də valideynləri kimi sənət yolunu seçdi və böyük uğurlar qazandı. Ölkəmizdən kənarda da Azərbaycan musiqisini ləyaqətlə təmsil etməklə yanaşı, sənətə yeniliklər gətirməyə nail oldu.

...İki gün əvvəl Beynəlxalq Muğam Mərkəzində Mehrinin növbəti konserti keçirilirdi və zal ağzına qədər dolu idi. Bu insanlar onun heyranları, pərəstişkarları idi və düşünürəm ki, tamaşaçı sevgisini qazanmaq hər bir sənətkar üçün böyük xoşbəxtlikdir. Mehri bu sevgini çoxdan qazanıb. Dünya xalqlarının nəğmələrini, eləcə də Azərbaycan bəstəkarlarının mahnılarını fonoqramsız, canlı oxudu və alqışlar, səhnəyə yağan



gül-çiçək yağışı tamaşaçıların sevgisinin, rəğbətinin ifadəsi idi.

Konsert proqramında bəndənizin də bir şeiri səsləndi və düşünürəm ki, kamanın səsinə sözlə qoşulmaq səslə sözün vəhdətinə bir işarədir. Fürsətdən istifadə edib şeirimi proqrama daxil etdikləri üçün konsertin təşkilatçılarına təşəkkürümü bildirirəm.

Mən tədbirdən ruhuma dinclik gətirən xoş əhvalla ayrıldım, Mehrinin ifaları duyğularıma yelkən açmışdı və həm də onu düşünürdüm ki, bu qəbil sənət gecələri təkcə videolentə köçürülməli deyil, həm də yazıya çevrilməlidir. Bu gecələr mədəniyyətimizin bir parçasıdır.

Mehri Əsədullayevanın konserti, sözün əsl mənasında, bir sənət bayramı idi. Dəyərli sənətkarımızı təbrik edir, gələcək illərdə böyük səhnələri fəth etməsini arzulayıram.

***Kənan HACI,***
***yazıçı-publisist***

Xalq qəzeti.- 2026.- 11 mart (№45).- S.10.